# NOYABR 2018

**SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 11 / 2018-ci il**

**Bu buraxılışda:**



YSPE ekstruderində "spaghetti run" sınağı keçirildi s.7



Mini laboratoriya ekstruderi və plitəli press mövzusunda təlimlər s.10



KN/KZ şöbəsi Dünya Keyfiyyət Gününü qeyd etdi s.12



618
işçi

İş vaxtının itkisi olmadan
18,436,501
adam/saat işlənmişdir

99.4%
YSPE zavodu – oktyabr ayına ümumi irəliləyiş

SOCAR POLYMER

# Korporativ ekoloji cavabdehlik diqqət mərkəzində



Hörmətli həmkarlar!

Ətraf mühitin çirklənməsi demək olar ki, bütün fəaliyyət sahələrində xüsusi müzakirə mövzusuna çevrilmişdir, çünki insan övladının məşğul olduğu istənilən fəaliyyət növü ətraf mühitə birbaşa və ya dolayı təsir göstərir. Sənaye şirkətləri ekoloji problem və təhlükələrə son dərəcə diqqətlə yanaşmalıdır. Bunun nə qədər əhəmiyyətli olduğunu təkrar etməyə ehtiyac yoxdur. Buna görə də “SOCAR Polymer” ekologiya və ətraf mühitin mühafizəsi baxımından Xəzər və Qafqaz regionu üçün çox vacib olan bir tədbirdə hər il iştirak edir. Ekoloji məsələlərə həsr edilən həmin tədbir Azərbaycan Respublikasının Ekologiya və təbii sərvətlər nazirliyi və İDEA İctimai birliyinin dəstəyi ilə həyata keçirilir. Bu il həmin ekoloji sərgi “Təbiəti deyil, özünü dəyiş” şüarı altında keçirilir. “SOCAR Polymer” tullantıların və atmosferə püskürmələrin aradan qaldırılması, ehtiyatlarımızın səmərəsinin və məhsuldarlığının maksimuma çatdırılması, habelə ölkəmizin təbii sərvətlərinə mənfi təsir göstərən fəaliyyətlərin minimuma endirilməsi məqsədilə ətraf mühitin mühafizəsi ilə bağlı məsələlərin öz fəaliyyəti zamanı daha effektiv həll olunması üçün yollar araşdırıb tapmağa çalışmaqdadır. Bu prosesdə könüllü və ya icbari qaydada iştirak edən bir çox digər yerli şirkətdə olduğu kimi belə fəaliyyət bizim şirkət üçün də inkişafın dayağına çevrilmişdir.

Korporativ ekoloji cavabdehlik ətraf mühitə təsirin və əlaqədar maliyyə xərclərinin azaldılması məqsədilə ən səmərəli və təsirli tədbirlərin görülməsini nəzərdə tutur.

Ofisdə də, zavodumuzda da tullantıların azaldılması, ətraf mühitin mühafizəsi və əməkdaşlarımızın SƏTƏM proqramlarına cəlb edilməsi istiqamətində görülən tədbirlər və şahidi olduğunuz digər səylər şirkətimizin ekoloji məsələlərlə və cəmiyyətin rifahı ilə bağlı vicdanlı mövqeyini təcəssüm edir.

Ətraf mühitin mühafizəsi məsələləri sahəsində dünyanın lideri olan “Golder Associates” şirkəti ilə əməkdaşlıq etməklə gəlin bir yerdə “SOCAR Polymer”i nəinki iqtisadi və maliyyə baxımından, həm də cəmiyyətimizi ətraf mühit məsələlərindən xəbərdar olmağa, və ona qarşı təşəbbüskar və dost mövqeyindən çıxış etməyə dəvət edən SƏTƏM standartlarına cavab verən misilsiz bir layihəyə çevirək.



**Fərid Cəfərov**

# Noyabr ayında sahədə müşahidə olunan irəliləyiş

## YSPE zavodu



YSPE zavodu: Qarışdırıcı siloslar.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Ekstruziya qurğusu.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Orqanoleptik qurğu/Tullantı sularının təmizlənməsi qurğusu. Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Polimerləşdirmə qurğusu.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Elektrik yarımstansiyası.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: qranula üfürücü aqreqatın logistika sahəsi.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Reaktorun boşaltma rezervuarı.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Aşağı təzyiqli əridicilərin rekuperasiyası.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Torbalama və qablaşdırma.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir



YSPE zavodu: Etilenin təmizlənməsi.
Natamam işlərin yerinə yetirilməsi davam etmişdir

# Layihənin icra vəziyyəti

## YSPE Zavodu üzrə irəliləyiş

### Layihənin bölmələri üzrə ümumi irəliləyiş

İşçi layihəsinin hazırlanması

**100%**

MTT/Satınalma

**100%**

Podrat işləri

**100%**

Material təchizatı – hazırlama və çatdırılma

**100%**

Tikinti işləri

**99.6%**

Ümumi irəliləyiş faizi

**99.4%**



# YSPE ekstruderində “spaghetti run” sınağı keçirildi

## “SOCAR Polymer”in YSPE zavodu sınaq istehsalına başladı



İzobutan xətləri yuyulduqdan sonra noyabrın 19-da YSPE zavodundakı ekstruziya avadanlığı sınaq məqsədi ilə işə salındı. Həmin sınaqda Fluor şirkəti daxil olmaqla IPMT kollektivinin üzvləri, mühəndislər və istehsalat operatorları iştirak etdilər.

Tədbir iştirakçıları YSPE qranulalarının sınaq istehsalına tamaşa etdilər. Yüksək sıxlıqlı polietilen kütləsi ekstruder qurğusundan keçərək spagetti formasında çıxdıqdan sonra qranulalar şəklində doğrandı, daha sonra isə qurudulub soyuduldu.

Həmin sınağın məqsədi YSPE zavodunun Quru Bölməsinin istismara verilməzdən əvvəl yoxlamadan keçirməkdən ibarət idi. Quru Bölmədə quru PE ovuntusu müəyyən qatqılar/inqrediyentlərlə qarışdırılır və müvafiq YSPE növlü qranulalar istehsal olunur.

Bu əlamətdar hadisə təntənəli surətdə qeyd edildi. Mərəsaimdə “SOCAR Polymer”, Fluor, “Kinetics Technology” və podratçılar daxil olmaqla bu layihəyə öz töhfəsini vermiş bütün kollektivlərə təşəkkür bildirildi.

# “SOCAR Polymer” 2018-ci il Xəzər Ekologiya Sərgisində




14-16 noyabr tarixlərində “SOCAR Polymer” digər 43 eksponentlə yanaşı “Caspian Event Organisers (CEO)” şirkətinin Bakı Ekspo Mərkəzində təşkil etdiyi “Caspian Ecology 2018” adlı 9-cü Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisində iştirak etdi. Qafqazda və Xəzəryanı regionda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, habelə IDEA İctimai Birliyi tərəfindən dəstəklənən yeganə belə əhəmiyyətli ekoloji forum olan bu sərgi bu il “Təbiəti deyil, özünü dəyiş” şüarı altında keçirilirdi. Bu sərginin məqsədi ictimaiyyətin diqqətini ətraf mühit məsələlərinə və onların həlli yollarına cəlb etməkdən, habelə təbii sərvətlərin daha səmərəli istifadə edilməsi, bərk tullantıların toplanması və zərərləşdirilməsi və s. kimi sahələrdə əldə edilmiş son nailiyyətləri göstərməkdən ibarətdir.

Sərgidə bizim şirkətimizi Güllər Tağıyeva, Xalidə Əlimirzəyeva və Gövhər Məmmədova təmsil edirdi.






**Gövhər Məmmədova,**
**Kargüzar**

- Bizim stendimizi ziyarət edənlərin arasında ekoloji araşdırmalar sahəsində ixtisaslaşan bir çox tələbə var idi. Bura həm də zavod və laboratoriya cihazları, sərfiyyat materialları, habelə zavodların fəaliyyəti ilə bağlı digər məhsullar istehsal edən şirkətlərin nümayəndələri də baş çəkir və öz məhsul və xidmətlərini təklif edirdi.
Stendimizi ekoloji məsələlər və ya ekologiya elmləri sahəsində mütəxəssis olmayan kifayət qədər adi vətəndaşla yanaşı bu sahədə mütəxəssis olan təqribən on-on iki nəfər də ziyarət etdi. Onlar bizə şirkətimizin ekoloji məsələlərə olan münasibəti ilə əlaqədar məqsədyönlü suallar verir, onları narahat edən məqamlara toxunur və həmin məsələlərin aradan qaldırılması yolları ilə maraqlanırdılar. Mən həmin ziyarətçilərə zavodlarımızın ətraf mühitə göstərə biləcəyi təsirlərin minimuma endirilməsi üçün şirkətimiz tərəfindən görülən tədbirlər haqqında müvafiq qaydada təfsilatı məlumat verirdim.

**Xalidə Əlimirzəyeva**
**Kiçik kargüzar**

- Ziyarətçilər şirkətimizin fəaliyyəti ilə çox maraqlanırdı. Onlar bizim zavodlarımızın polimer istehsal etmək üçün istifadə olunmuş plastikləri təkrar emal edə biləcəyi, bizim polimerlərdən hansı məhsulların hazırlanacağı və məhsullarımızı haradan əldə etmək olacağı barədə çoxlu suallar verirdi. Mən onlara məlumat verirdim ki, bizim istehsal etdiyimiz polipropilen “SOCAR Polypropilen” ticarət markası altında bazarlara çıxarılacaq. Sərgi zamanı ziyarətçilər “SOCAR Polymer” layihəsi, onun məqsədləri və ekoloji siyasətləri ilə ilk dəfə tanış oldular. Daxili satışlar, investisiya imkanları və distributorluq sahəsində əməkdaşlıq barədə də bir neçə sorğu daxil oldu. Kompüterlərə yüklənə bilən kataloqlar daxil olmaqla məhsullarımız haqqında daha dolğun və təfsilatlı məlumat əldə etmələri üçün biz ziyarətçilərin sorğularını şirkətimizin rəsmi veb-saytına yönəldirdik.



# İstehsalat təlimləri

"SOCAR Polymer" şirkətinin istismar/texniki xidmət/ laboratoriya personalı üçün ölkə daxilində və xaricdə istehsalat təlimləri təşkil olunaraq keçirilir. İstehsalat təlimləri PP zavodunda quraşdırılmış müxtəlif növ avadanlıq və qurğulara göstərilən texniki xidmətin, habelə istismar qaydalarının incəliklərini əhatə etməklə, nəzəri bilikləri genişləndirmək və praktiki bacarıqları artırmaq məqsədini daşıyır. Təlimlər "Tecnimont", "SOCAR Polymer" və "Fluor" şirkətləri tərəfindən təşkil edilir və təchizatçıların xaricdə yerləşən müəssisələrində və ya Azərbaycanın müvafiq qurumlarında keçirilir.

## Təcrübəçi hesabatı: "Mini laboratoriya ekstruderi və plitəli press mövzusunda təlimlər"




Aliyə Əhmədova
Laboratoriya təhlilçisi

- YSPE üzrə ixtisaslaşan laboratoriya mütəxəssisləri son aylar ərzində YSPE zavodu üçün ayrılmış laboratoriya avadanlığının istismarı sahəsində əldə etdikləri bacarıqlarını cilalamaqla məşğul olmuşlar. Eyni zamanda həmin avadanlığın istismara verilməsi də davam etmişdir. Həm növbəli qaydada, həm də standart iş saatları işləyən personal üçün 3 günlük təlimlər təşkil olunmuşdu. Təlimləri aparan şəxs, mühəndis Oliver Harf, Almaniyanın aparıcı şirkətlərindən biri olan "Dr. Collin GmbH" Texniki Xidmətlər şirkətinin nümayəndəsi idi. Mənzil-qərargahı Bavariyanın Ebersberq şəhərində yerləşən "Collin Lab & Pilot Solutions" şirkəti plastik emal edən müəssisələr və əlaqədar tədqiqat institutları üçün modul sistemli "ağıllı" pilot xətləri və laboratoriya avadanlığı işləyib hazırlamaqla məşğul olur.

Əsasən "Plitəli press" və "Mini laboratoriya ekstruderi" mövzusuna həsr edilmiş həmin təlim kursları laboratoriyanın Ekstruziya otağında keçirildi. Plitəli press korroziya təhlili və digər fiziki sınaqlar üçün polietilen nümunələrinin hazırlanması məqsədi ilə istifadə olunur. Digər cihazlar, konkret olaraq vannası və qranula hazırlayan aparatı olan Mini laboratoriya ekstruderi, MFR təhlili üçün qeyri-homogen nümunələrin homogenləşdirilməsi üçün istifadə olunur. Təlimçi-mühəndis Oliver Harf olduqca kompetensiyalı və təcrübəli bir mütəxəssis idi. O, təlimlərə yaxşı hazırlanmışdı. Təlimlər üçün vaxt kifayət vaxt ayrılmışdı. Bütün zəruri avadanlıqları təlimçi özü nümayiş etdirirdi. Təlimlər həm nəzəri, həm də praktiki hissələrdən ibarət idi. 3 gün ərzində həmin təlimlərdə təqribən 16 laborant iştirak etdi. Demək olar ki, bütün iştirakçılar avadanlıqları özləri bilavasitə işlətmək imkanı əldə etdilər. Qazanılan praktiki biliklərlə yanaşı, belə təlimlər peşə və texnoloji təhlükəsizliyin artırılması məsələsində laboratoriya təhlilçilərinə kömək edir. Təlim prosesində əldə edilən təcrübə laboratoriya təhlilçiləri üçün faydalı olacaqdır. Hal-hazırda, laboratoriyanın personalı YSPE avadanlığının qalan hissəsinə aid təchizatçı firma tərəfindən təşkil olunacaq növbəti təlimlərə hazırlaşır.

# SOCAR Polymer zavodunda keçirilmiş təlimlər

“Tecnimont” şirkəti ilə imzalanmış EPC müqaviləsində nəzərdə tutulduğu kimi, 28 avqust tarixindən etibarən “KT-Kinetics Tecnology” şirkəti hər gün təlimlər keçirmişdir. Təlimlər 2017-ci ilin avqust ayından keçirilməkdədir. Zavodun bütün istismar aspektlərini əhatə edən bu geniş təlim proqramı çərçivəsində təlimlərin həm auditoriyada (cəmi 480 saat), həm də bilavasitə iş yerlərində (cəmi 1500 saat) keçirilməsi nəzərdə tutulmuşdur. Auditoriya təlimləri ofis otağı şəraitində müxtəlif mütəxəssis və təchizatçıların rəhbərliyi altında keçirilir. İş yerlərində təcrübəli texniklərin rəhbərliyi altında keçirilən təlimlər isə “SOCAR Polymer”də çalışan operatorların tam hazırlanması və zavodun effektiv surətdə istismar edilməsi məqsədilə zavod sahəsində keçirilir. Təlimlər əsas dörd fəaliyyət kateqoriyasına təsnif olunmuşdur: elektrotexnika, NÖC, mexaniki hissə və istismar. Belə təlimlər “SOCAR Polymer” şirkətinin personalına avadanlığın istismar prinsiplərini daha yaxşı başa düşməyə imkan verir, və nasazlıqların aradan qaldırılması qaydaları, habelə əsas texniki xidmət növləri haqqında daha ətraflı məlumat çatdırır.

Noyabr ayında obyektdə keçirilmiş bəzi təlimlər haqqında daha ətraflı məlumat aşağıdakı cədvəldə verilir:

| ÖLKƏ DAXİLİNDƏKİ TƏLİMLƏR | | | | | |
|---|---|---|---|---|---|
| **Təlimin mövzusu** | **Şirkət/Ölkə** | **Müddəti** | **Keçirildiyi tarixlər** | **İştirakçı sayı** | **İştirakçılar** |
| **SƏTƏM supervayzeri təlimi** | SOCAR Polymer | 1 gün | 1 noyabr | 1 | Mexaniki-montaj işləri üzrə 1 supervayzer |
| **Qəza-xilasetmə briqadası üçün hazırlıq kursu** | SOCAR Polymer | 1 gün | 1 noyabr | 5 | 2 qurğu operatoru, 1 elektrotexnik, 1 torbalama/göndərmə operatoru və 1 SƏTƏM məsləhətçisi |
| **DCS və ESD sistemləri** | MAYEKAWA | 1 gün | 1 noyabr | 13 | 12 quru operatoru və 1 DCS sistem texniki |
| **Tullantıların növlərə ayrılması** | SOCAR Polymer | 1 gün | 11 noyabr | 4 | 4 ixtisassız fəhlə |
| **“Oracle Primavera P6” proqram təminatı** | Gantt | 4 gün | 12-15 noyabr | 8 | Texniki xidmətlərin planlaşdırılması üzrə 4 mütəxəssis, istehsalatın planlaşdırılması üzrə 2 mütəxəssis və 2 plan/qrafik tərtibatçısı |
| **Forklift sürücüləri - bacarıqların qiymətləndirilməsi** | SQA | 1 gün | 29 noyabr | 3 | 3 forklift sürücüsü |
| **Plitəli press** | KT | 1 gün | 21 noyabr | 6 | 6 laboratoriya təhlilçisi |
| | | | 22 noyabr | 6 | 6 laboratoriya təhlilçisi |
| | | | 23 noyabr | 4 | 4 laboratoriya təhlilçisi |
| **Mini laboratoriya ekstruderi** | KT | 1 gün | 21 noyabr | 6 | 6 laboratoriya təhlilçisi |
| | | | 22 noyabr | 6 | 6 laboratoriya təhlilçisi |
| | | | 23 noyabr | 4 | 4 laboratoriya təhlilçisi |
| **Soyutma aqreqatı – istehsalat təlimləri** | MAYEKAWA | 1 gün | 29 noyabr | 15 | 11 qurğu operatoru, 1 texnik-mexanik və 3 növbə supervayzeri |
| **Təhlil cihazı** | MAYEKAWA | 1 gün | 29 noyabr | 4 | 3 NÖC texniki və təhlil cihazı üzrə 1 mütəxəssis |

# KN/KZ şöbəsi Dünya Keyfiyyət Gününü qeyd etdi



Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1990-cı ildə elan edildiyinə və ilk dəfə 2008-ci ildə qeyd olunduğuna baxmayaraq Dünya Keyfiyyət Gününün tarixçəsi 1919-cu ildən başlayır. Həmin il CQI - Chartered Quality Institute (rəsmi keyfiyyət institutu) təşkilatı təsis edildi. Bu təşkilatın ümdə məqsədi "bütün sektorlarda keyfiyyətin idarə edilməsi praktikasını təbliğ etmək"dən ibarətdir.

Hər il qeyd olunan Dünya Keyfiyyət Günü dünya iqtisadiyyatının fasiləsiz təkmilləşmə sistemlərinə sadiq qaldığının təzahürüdür. Dünya Keyfiyyət Günü hər il noyabr ayının ikinci cümə axşamı qeyd olunur. Adətən, noyabr Keyfiyyət Ayı elan edilir. Bu tədbirin məqsədi keyfiyyətin nə qədər əhəmiyyətli rol oynadığını izah etməkdən ibarətdir. Çünki keyfiyyət həm istənilən şirkətin uğur qazanması, həm də istənilən fərdin rifahının artırılması üçün çox vacibdir. Keyfiyyət istənilən fəaliyyət nəticəsində əldə etdiyimiz mükəmməllik olaraq tərif edilə bilər. Dünya Keyfiyyət Günü keyfiyyəti təbliğ edən və keyfiyyətin təmin edilməsi praktikalarını dünyanın hər yerində tətbiq etməyə çağıran müxtəlif tədbirlərlə qeyd olunur. Həmin gün dünyanın hər yerində fəaliyyət göstərən müəssisələrdə müxtəlif biznes









seminarları, təqdimatlar, viktorinalar və tematik müsabiqələr keçirilir. Belə tədbirlər adətən həmin müəssisələrdə işləyən KZ/KN peşəkarları tərəfindən təşkil edilir. 2018-ci ilin Keyfiyyət Gününün ana mövzusu "Etibar məsələsi" adlanır.

Bu münasibətlə noyabrın 8-də "SOCAR Polymer" zavodunda təşkil edilmiş tədbirin açılışında çıxış edən KZ/KN menecerinin müavini Tamara Məhərrəmova Dünya Keyfiyyət Gününün məqsədi və əhəmiyyəti haqqında danışdı. O vurğuladı ki, keyfiyyət, innovasiya və sabit inkişafdan asılı olan qlobal iqtisadiyyat şəraitində Dünya Keyfiyyət Gününün qeyd olunması və keyfiyyətin şirkət fəaliyyətinin əsaslandığı bünövrə halına gətirilməsi həyati əhəmiyyət kəsb edir. Sonra Uilyam Fosterdən sitat gətirilərək qeyd edildi: "Keyfiyyət heç vaxt təsadüfi olmur. O, həmişə yüksək məqsədlərin, səmimi səylərin, ağıllı rəhbərliyin və işin peşəkarcasına görülmənin nəticəsidir. Bir çox alternativ arasında keyfiyyət müdrik seçimdir".

Sonra söz Akif Kərimova verildi. O, SƏTƏM-lə keyfiyyətin "dost" olduqları barədə danışdı. Ondan sonra çıxış edən Elşən Heydərov, Zahid Sultanov və Rauf Ağabəyov müvafiq olaraq Keyfiyyətə zəmanət/Keyfiyyətə nəzarət, Keyfiyyət məsələlərin idarə olunması və Layihənin ilkin keyfiyyət sənədləri haqqında təqdimatlar etdilər. Daha sonra Zöhrə Məmmədova Texniki tələblərə uyğunsuzluq aktları (NCR) və Nəzarət mövzusu ilə bağlı statistik məlumatlar təqdim etdi, Heybət Muradov isə müvafiq video material nümayiş etdirdi.

Tədbirin sonunda PP və YSPE zavodları üzrə NCR və Nəzarət məsələləri ilə bağlı təqdim etdikləri hesabatlar sayəsində "Keyfiyyətin" təmin edilməsinə verdikləri töhfələrə görə aşağıdakı əməkdaşlara sertifikatlar və hədiyyələr verildi:

**1-ci yer – Güllər Tağıyeva**
**2-ci yer - Tural Məmmədli**
**3-cü yer – Rəşad Əliyev.**

Keyfiyyət bayramı noyabrda qeyd olunur, amma Ərəstunun dediyi sözləri də unutmayın: "Keyfiyyət bir dəfəlik hərəkət deyil, o - bir vərdişdir!"



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KİMYA SƏNAYESİNDƏ
YENİ ÜFÜQLƏR AÇIRIQ

SOCAR POLYMER